Azərbaycan Respublikası energetika nazirinin
29 noyabr 2024-cü il tarixli 3-15/3-2-742/2024
nömrəli Əmri ilə təsdiq edilmişdir

**Azərbaycan Respublikasının Energetika Nazirliyində görmə və hərəkət pozuntuları (məhdudiyyəti) olan əlilliyi olan şəxslər üçün xidmətlə bağlı məlumat verən və onların xidmət almasına kömək edən məsul əməkdaşların ayrılması haqqında**

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin kollegiyasının 17.10.2016-cı il tarixli 1/1-06 nömrəli qərarı ilə təsdiq edilmiş Dövlət xidmətlərinin "ASAN xidmət indeksi" üzrə qiymətləndirilməsi Qaydalarının 1.4.4-2-ci yarımbəndinə əsasən görmə və hərəkət pozuntuları (məhdudiyyəti) olan əlilliyi olan şəxslər üçün xidmətlə bağlı məlumat verən və onların xidmət almasına kömək edən əməkdaşın ayrılması icrası ilə əlaqədar Azərbaycan Respublikası Energetika Nazirliyinin aparatında, onun strukturuna daxil olan və strukturuna daxil olmayan tabeliyindəki qurumlarda görmə və hərəkət pozuntuları (məhdudiyyəti) olan əlilliyi olan şəxslər üçün xidmətlə bağlı məlumat verən və onların xidmət almasına kömək edən əməkdaşların ayrılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq,

**əmr edirəm:**

1. Energetika Nazirliyinin (bundan sonra Nazirlik) Ümumi şöbəsinin Vətəndaşların qəbulu işininin təşkili sektorunun *müdiri Əzizə Cəfərova* görmə və hərəkət pozuntuları (məhdudiyyəti) olan əlilliyi olan şəxslər üçün Nazirliyin Aparatında xidmətlə bağlı məlumat verən və onların xidmət almasına kömək edən məsul şəxs olaraq, müəyyən edilsin.
2. Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin (bundan sonra Dövlət Agentliyi) Maliyyə şöbəsinin böyük məsləhətçisi Ceyhun İsayev görmə və hərəkət pozuntuları (məhdudiyyəti) olan əlilliyi olan şəxslər üçün Dövlət Agentliyində xidmətlə bağlı məlumat verən və onların xidmət almasına kömək edən məsul şəxs olaraq, müəyyən edilsin.
3. Enerji Məsələlərini Tənzimləmə Agentliyinin (bundan sonra Agentlik) Ümumi şöbəsinin baş mütəxəssisi Cəmil Cəfərli və əvəzedici kimi mütəxəssis Ayaz Abbasov görmə və hərəkət pozuntuları (məhdudiyyəti) olan əlilliyi olan şəxslər üçün Agentlikdə xidmətlə bağlı məlumat verən və onların xidmət almasına kömək edən məsul şəxslər olaraq, müəyyən edilsinlər.
4. Məsul şəxslər görmə və hərəkət pozuntuları (məhdudiyyəti) olan əlilliyi olan şəxslərin qəbulunun və onların müraciətlərinə baxılmasının "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçirilməsi üçün tədbirlər görsünlər.
5. Ümumi şöbə bu əmrin surətinin Nazirliyin Aparatının bütün struktur bölmələrinə, Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinə və Enerji Məsələlərini Tənzimləmə Agentliyinə çatdırılmasını təmin etsin.

6. Əmrin icrasına nəzarət nazir müavini Orxan Zeynalova həvalə edilsin.

**Nazir** **Pərviz Şahbazov**